BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2010

# AZƏRBAYCAN RESPUBLİKASININ QƏRBİ AVROPA DÖVLƏTLƏRİ İLƏ SİYASİ-DİPLOMATİK MÜNASİBƏTLƏRİNİN BƏRPASININ BİRİNCİ MƏRHƏLƏSİ

**İ.Ş.İBRAHİMLİ**
***Bakı Dövlət Universiteti***
***Ilqar Ibrahimli@yahoo.com***

*Məqalə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra onun beynəlxalq münasibətlər sistemində qurduğu xarici əlaqələrin mühüm bir tərkib hissəsinə həsr edilmişdir. Məqalədə Azərbaycanın müstəqillik əldə etməsindən sonra qərbi Avropa dövlətləri ilə əlaqələrin qurulmasının birinci mərhələsi tədqiq edilir. Göstərilən münasibətlərdə müşahidə edilmiş dəyişikliklər təhlil edilir və onların mahiyyət dəyişikliklərinə müəllif münasibəti bildirilir.*

1991-ci ildə müstəqilliyinin elan edilməsi ilə Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daxil olması tarixin nisbi təkrarı fəlsəfəsini göz önünə gətirməkdə idi. Belə ki, Azərbaycan ilk dəfə deyildi ki, bu sistemdəki yerini tutmağa və mövqeyini təsdiqləməyə çalışırdı. Azərbaycanın geosiyasi yerləşməsi, malik olduğu təbii sərvətlər, həmçinin tarixi qonşuluqları onu bu dəfə də analoji problemlərlə üzləşdirmişdi. Ancaq bu, heç də o demək deyildi ki, hər şey detallı şəkildə təkrarlanırdı. Ümumi təkrarlanan xətdə fərqli nüanslar və yeniliklər vardı. Lakin istər XX əsrin əvvəllərində, istərsə də sonunda Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daxil olmasında və özünə dayanıqlı mövqelər qazanmasında Qərbi Avropa dövlətlərinin mühüm əhəmiyyəti vardı. Qərbi Avropa dövlətlərinin dünya siyasətindəki rolu nəinki zəifləmiş, hətta daha güclənmişdi. Dünya iqtisadi sisteminin nüvəsini təşkil edən milli iqtisadiyyatların, güc nisbətində dəyişikliklər edə biləcək hərbi qüvvələrin, aparıcı beynəlxalq təşkilatların böyük bir qismi Qərbi Avropada idi.

Azərbaycanın müstəqillik əldə etməsindən öncə dünyada və o cümlədən Qərbi Avropada, həmçinin SSRİ daxilində cərəyan edən proseslərin təhlili onu göstərir ki, onlar müstəqilliyin qazanılmasına bilavasitə təsir edirdi. İlk öncə onu söyləmək lazımdır ki, müstəqillik öncəsi Azərbaycan SSRİ-yə daxil olan müttəfiq respublikalardan biri idi. İqtisadi potensialın və İttifaq büdcəsinə verdiyi gəlirlərin müqabilində Azərbaycan SSR yaşayış səviyyəsinə görə SSRİ-də axırıncı yerlərdən birini tuturdu. Baxmayaraq ki, Azərbaycan SSR-yə H. Əliyevin rəhbərlik etdiyi dövrdə iqtisadiyyatda və həyatın bütün sahələrində mühüm irəliləyişlər baş verdi, sonrakı hakimiyyətlər zamanı respublika yenidən geriləđi. Azərbaycanlılar SSRİ dönəmində dəfələrlə ermənilərin təhriki və iştirakilə deportasiyalara məruz qaldılar. Mərkəzi hakimiyyətin birbaşa siyasəti nəticəsində respublikada rüşvətxorluq və korrupsiya, təhsildə qeyri-sağlam təzahürlər rəğbətləndirilirdi. Ancaq bununla belə sovet hakimiyyəti zamanı Azərbaycanda pozitiv yeniliklər də olmuşdu. Bunların sırasına milli dildə orta və ali təhsilin mövcudluğunu

aid etmək mümkündür. 1954-1959-cu illərdə Azərbaycan dilinin dövlət dili olması uğrunda mübarizə aparılmışdı. Nəhayət, Azərbaycan Sovet Konstitusiyasının 21 aprel 1978-ci ildə qəbul olunan layihəsində Heydər Əliyevin də bilavasitə dəstəyi ilə Azərbaycan dili dövlət dili elan edilmişdi (1, 541).

Bütün mənfiliklərinə baxmayaraq milli dildə müxtəlif səviyyəli təhsilin olması gələcəkdə milli-azadlıq hərəkatına lazımi kadrların daxil olmasına zəmin olacaqdı. Digər tərəfdən təhsilin mövcudluğu savadlılıq səviyyəsini artırırdı. Daha çox savadlı insanların mövcudluğu milli hərəkatın kütləviliyi demək idi. Azərbaycanın SSRİ daxilində ən böyük qazancı isə, nominal da olsa, dövlət qurumunun mövcudluğu idi. Xüsusən, bu qurumun muxtar deyil, müttəfiq olması əhəmiyyətli idi. Əks halda SSRİ dağılsa belə Azərbaycan müstəqillik qazana bilməzdi.

Müstəqilliyin ikinci dəfə bərpasından sonra Azərbaycanda hakimiyyətdə olanların beynəlxalq mühitə inteqrasiya cəhdlərində belə fərqlər vardı. Əsrin əvvəlləri ilə müqayisənin aparılması bir sıra məsələlərə aydınlıq gətirilməsinə kömək edə bilər. Azərbaycan əsrin əvvəllərində (1918-1920) müstəqillik əldə etdikdən sonra dərhal beynəlxalq münasibətlərin qurulması üçün fəaliyyətə başlamışdı. Bu məqsədlə Osmanlının xarici siyasət orqanının imkanlarından istifadə etmək məqsədə uyğun hesab edilmişdi (2, 23-24). Fəqət, ikinci müstəqillik dövründə Azərbaycan rəhbərliyi Rusiyanın təzyiqindən qorxaraq beynəlxalq münasibətlərin qurulmasında elə də fəallıq göstərmirdi.

Qərbi Avropa dövlətlərinin Azərbaycanın tanınmasına münasibəti və tanınmaya təsir edən amillərdə də fərqlər vardı. XX əsrin əvvəllərindən fərqli olaraq Azərbaycan heç bir düşmən hərbi-siyasi koalisiyasının üzvü kimi olmamışdı. Əgər əsrin əvvəllərində Qərbi Avropa dövlətlərinin xarici siyasətində Rusiyanın saxlanılması fikri vardısa, SSRİ-nin dağılması Qərbin, o cümlədən onun onurğa sütununu təşkil edən Qərbi Avropa dövlətlərinin marağında idi. Çünki SSRİ-nin mövcudluğu daim onların siyasi-iqtisadi quruluşlarına təhlükə kimi çıxış etmişdi. SSRİ öz mövcudluğu zamanı Qərbi Avropa dövlətlərinin daxilindəki solçu hərəkatları maliyyələşdirmiş, eyni zamanda hərbi gücü ilə onları qorxutmuşdu. Bütün bu deyilənlər Azərbaycanın tanınmasına təsir etməyə bilməzdi.

Qərbi Avropa dövlətlərini Azərbaycanı tanımaqda tələsməyə vadar edən başqa cəhətlər də vardı. Ən əsası Azərbaycan Avropa üçün geosiyasi yerləşməsi etibarilə maraqlı idi. Çünki onun üzərindən Asiya ilə iqtisadi əlaqələri inkişaf etdirmək üçün ən optimal yollar keçirdi. Geosiyasi yerləşmə gələcəkdə Rusiyanı özünə loyal münasibət bəsləyən dövlətlərlə əhatə etməyə imkan verə bilərdi. Azərbaycanla əlaqələrin qurulması ümumiyyətlə Cənubi Qafqazda maraqların təmin olunmasının açarı idi. Azərbaycan Cənubi Qafqazın iqtisadi baxımından ən potensiallı ölkəsi idi.

İkinci amil isə Azərbaycanın yanacaq-enerji daşıyıcıları ixracatçısı olması idi. Doğrudur, Azərbaycan müstəqil olduğu dövrdə dünya indiki kimi enerji təhdidləri ilə üzləşmirdi. Fəqət Rusiyanın perspektivdə dirçələcəyi ehtimalı vardı. Tarixən Qərbi Avropa dövlətlərinə məlum idi ki, Rusiya dirçəlişlərinin arxasından hər zaman dünya yeni təhlükələrlə üzləşirdi. Sonrakı tarixi inkişaf bu ehtimalları doğrultdu. Qərbi Avropa dövlətlərinin başlıca məqsədlərindən biri də Azərbaycanla neft ehtiyatlarının reallaşdırılması üçün müqavilələr imzalamaq idi. Məhz ona görə Azərbaycanla "Əsrin Müqaviləsinin" imzalanması prosesində Qərbi Avropa dövlətlərinin şirkətləri aparıcı mövqelər tutdular.

Azərbaycanın bir müsəlman ölkəsi olması da Qərbi Avropa dövlətlərinin xarici

siyasət xəttini formalaşdıranların diqqətindən kənarda qalmamışdı. Yaxın bir ölkə olan Türkiyə də bir müsəlman ölkəsi olaraq Qərbi Avropa dövlətlərinin strateji tərəfdaşı idi. Ancaq bununla belə yeni yaranan müsəlman dövlətinin Qərbi Avropa dövlətləri kimi sekulyar bir yol seçməsi onların maraq dairəsində idi. Əks ehtimal vardı. Qərbi Avropa dövlətlərinin qorxduğu bu ehtimal İran nümunəsi idi. Baxmayaraq ki, Qərbi Avropa dövlətlərinin İranla əlaqələri normal idi. İrandakı siyasi sistem Qərbi Avropa meyarları üzərində qurulmamışdı. Lakin bununla belə ikinci belə dövlət Qərbi Avropa dövlətlərinin maraqlarına zidd idi.

Azərbaycan Respublikası ilə Qərbi Avropa dövlətləri arasında əlaqələrin yaranma dövrünün başqa xüsusiyyətləri də vardı. Həmin xüsusiyyətlərdən biri də o idi ki, Qərbi Avropa dövlətləri ABŞ-dan asılılığı zəiflətmək istəyirdilər. Avropa evi ideyasının reallaşdırılmasının ilkin addımları atılırdı. Azərbaycan üçün də bu diqqətə alınacaq amil idi.

Lakin burada qeyd olunası bir sıra məqamlar da vardı. Ən başlıcası Azərbaycanın xarici siyasətində olan mövqe dəyişmələri qeyd olunmalıdır. Öncə də qeyd olunduğu kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra respublika prezidenti olan A.Mütəllibov Rusiyameylli bir siyasi kursun tərəfdarı idi. Çünki nə onun, nə də onun ətrafında toplananların müstəqil və Rusiyameylli olmayan xarici siyasət haqqında təsəvvürləri belə yox idi. Maraqlıdır ki, Mütəllibovun xarici siyasət kursu ilə razılaşmayan deputat qrupu özünü "Azad Azərbaycan" adlandırmışdı (3, 75).

Bu hakimiyyət üçün Azərbaycanın tam müstəqilliyi dəhşətli bir son kimi görünürdü. "Azərbaycanın demokratik transformasiya yolunda qarşılaşdığı ən mürəkkəb problemlərdən biri Ə.Vəzirov və A.Mütəllibov rejimlərinin ölkədəki vəziyyətin tələblərinə müvafiq olmaması və cəmiyyətdə baş verən dəyişikliklərə ziddiyyətli reaksiyası idi (4, 69-93). Belə olan təqdirdə Azərbaycanın Qərbi Avropa dövlətləri ilə intensiv münasibətlərin qurulmasından söhbət gedə bilməzdi. Mütəllibov hakimiyyəti xarici siyasət addımlarını Moskva ilə razılaşdırmağı daha üstün tutardı. Lakin bununla 1991-ci ilin sonu 1992-ci ilin ilk aylarında dünya ölkələri tərəfindən Azərbaycan dövlətinin diplomatik cəhətdən tanınması prosesi genişlənməyə başladı.

Azərbaycan Respublikasına milli qüvvələrin rəhbərlik etməsi ehtiyacı 1992-ci ildə hakimiyyətin dəyişməsinə səbəb oldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyətə gəlməsindən sonra xarici siyasət kursunda kardinal dəyişikliklər baş verdi. Türkçülük milli ideoloji görüşləri xarici siyasətdə öz əksini tapdı. Azərbaycan xarici siyasətində Türkiyəyə xüsusi önəmin verilməsi İran və Rusiyanı qıcıqlandırırdı. Qərbi Avropa ilə isə əlaqələr Mütəllibov rejimindən fərqli olaraq intensivləşirdi. Ancaq Türkiyə yönümü kifayət qədər üstünlük təşkil edirdi. Bu meylliliyi şərtləndirən obyektiv səbəblər də mövcud idi. Belə ki, rusmeylliyin dayaqlarını sarsıtmaq üçün bu addımlar atılmışdı. Haradasa həmin siyasətə əsas verən səbəblər vardı. Rusiya MDB ölkələrini nəzarətdə saxlamaq üçün "yaxın xaric" anlayışından istifadə etməkdə idi (5, 116 – 126). Həmin kateqoriyadan çıxmaq üçün alternativ bir kurs olmalı idi. Bu dövr xarici siyasətində Qərbi Avropaya yönəlik fəallığın olmaması da səbəblərə bağlı idi: bunun başında dayanan diplomatik təcrübənin və Avropanı yaxşı bilən kadr potensialının azlığı idi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə Azərbaycan balans siyasəti fonunda Qərbə inteqrasiya kursunu seçdi. Rusiya və İranı qıcıqlandırmamaq üçün ilk əvvəl Qərbə inteqrasiya kursu o qədər də önə çəkilmirdi. Burada diplomatik metodlardan dövlət başçısının olduqca məlumatlı olduğu ortaya çıxırdı. Heydər Əliyev hələ SSRİ rəhbərliyində təmsil olunarkən dövlətin strateji problemlərinin həlli üçün bir sıra

beynəlxalq danışıqlara rəhbərlik etmişdi. Heydər Əliyev Qərbi Avropa məkanını Azərbaycan xarici siyasət prioritetləri sırasına daxil etmişdi. Sonra daha ətraflı söhbət açılacaq neft strategiyasında bu məkana inteqrasiya üçün iqtisadi və siyasi əsaslar formalaşdırılmışdı. Heydər Əliyevə görə Azərbaycan inteqrasiya prosesini mərhələli şəkildə həyata keçirməli idi. Onu strategiyasında ilk öncə daxili vəziyyət stabilləşdirilməli idi. Azərbaycan xalqının dəstəyinə arxalanan Heydər Əliyev iradəsi və qətiyyəti nəticəsində dövlətçiliyin əleyhinə yönəldilmiş cəhdlərin qarşısını aldı. Azərbaycan özünün xarici siyasətinin üçüncü mərhələsinə qədəm qoydu.

Bütün bu mərhələlər ərzində dövlətçilik təcrübəsini artıran Azərbaycan Respublikası xarici siyasətini və xüsusilə də Qərbi Avropa dövlətləri ilə əlaqələrini müəyyən prinsiplər üzərində qurdu. Respublika Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan xarici əlaqələrini beynəlxalq hüquq normaları və ölkə maraqlarını nəzərə alan prinsiplər üzərində qurur (6, 220). Azərbaycan Respublikası xarici siyasəti qarşısında ölkənin bütün dünya dövlətləri, o cümlədən Qərbi Avropa dövlətləri ilə, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əlaqələrin qurulması vəzifəsi dayanır. Mövcud vəziyyətdə istənilən sahədə Azərbaycan xarici siyasətinə Dağlıq Qarabağ münaqişəsi öz təsirini göstərməkdədir. Buna görə də, istənilən sahənin və istənilən üslubun vasitəsilə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə nail olmaq xarici siyasətin vəzifələrindəndir. Xarici siyasətin başlıca məqsədi isə Azərbaycanın beynəlxalq münasibətlər subyekti kimi müstəqil, inkişaf edən və istiqrarlı mövqeyini qorumaqdır. İzlənilən və daim Azərbaycan dövləti tərəfindən qorunmağa çalışılan isə daxili və xarici siyasətin biri-birini tamamlaması amilidir. Yaxın qonşuların və dünya təcrübəsinin timsalında daxili və xarici siyasətin biri-birini tamamlamamasının necə ağır fəsadlara gətirib çıxartdığı hamıya məlumdur.

Azərbaycanın müstəqil bir dövlət olaraq Qərbi Avropa dövlətləri tərəfindən tanınması əlaqələrin yaranmasının ilkin mərhələsi idi. Tanınma bir dövlətin fəaliyyətə başlaması üçün mühüm amil idi və sanki beynəlxalq aləmin onun mövcudluğuna verdiyi xeyir-dua hesab olunurdu. Ancaq tanınma mərhələsi daha çox SSRİ-nin süqutunun qətiləşdirilməsi fonunda gedirdi. Yəni burada tanınma prosesini bilavasitə Azərbaycan diplomatiyasının fəaliyyətinə bağlamaq çox güman ki, düzgün nəticə ola bilməzdi. Doğrudur, burada bəzi dövlətlərin məlumatlılığında diplomatik fəaliyyətlərin də rolu mövcud idi.

## ƏDƏBİYYAT


1. Həsənli C. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959), Bakı: Adiloğlu, 2008, 544 s.
2. Qasımov A. Heydər Əliyev-Ümummilli lider. Bakı: Dirçəliş XXI əsr, 2002, 300 s.
3. Балаев А. Азербайджанское национальное движение: от «Мусавата» до Народного Фронта. Баку: Элм, 1992, 104 с;
4. Mehdiyev R. Azərbaycanda siyasət: dünən, bu gün və sabah. Bakı: Dirçəliş XXI əsr, 2002, № 49, 300 s .
5. Ağabəyli H.İ. Rusiya Federasiyasının postsovet məkanında müasir xarici siyasətinin əsas konsepsiyaları // Tarix və onun problemləri jurnalı, 2005 № 3, 400 s.
6. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərbaycan, 1998, 315 s.

# ПЕРВАЯ СТАДИЯ ВОЗОБНОВЛЕНИЯ ПОЛИТИКО-ДИПЛОМАТИЧЕСКИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ГОСУДАРСТВАМИ ЗАПАДНОЙ ЕВРОПЫ

**И.Ш.ИБРАГИМЛИ**

**РЕЗЮМЕ**

Статья посвящена важной составной части зарубежных отношений, созданной страной в системе международных отношений после завоевания независимости Азербайджанской Республикой. Здесь исследуется первая стадия создания отношений между Азербайджаном и странами Западной Европы после обретения независимости Азербайджаном. Статья анализирует изменения, наблюдаемые в этих отношениях, автор демонстрирует свое отношение к сути этих изменений. Особое значение дано обеспечению отношений между Азербайджаном и Западной Европой к прагматическому ядру после возвращения Гейдара Алиева, чтобы двинуться на большой скорости. Наряду с историческим исследованием, автор в данной статье показывает свое отношение к указанным событиям и процессам. При написании статьи автор использовал соответствующие литературные источники.

# THE FIRST STAGE OF RESTORATION OF THE POLITICAL AND DIPLOMATIC RELATIONS OF THE AZERBAIJAN REPUBLIC WITH THE WESTERN EUROPEAN STATES

**I.Sh.IBRAHIMLI**

**SUMMARY**

The article is devoted to the significant integral part of foreign relations built in the system of international relations after the AR gained its independence. This article investigates the first stage of building relations with the states of Western Europe, after Azerbaijan gained its independence. The changes observed in the stated relations have been analyzed, and the author expressed his attitude to the essence of those changes. Special importance is given to the bringing the relations between Azerbaijan and West Europe to the pragmatic core after Heydar Aliyev's return to power. Alongside with the historical research, the author displays his attitude to the events and processes. The presented article is based on relevant references.